# ADA Universitetində təhsil haqqı güzəştləri

## 1. Dövlət sifarişli təhsil

ADA Universiteti aşağıdakı ixtisaslar üzrə dövlət sifarişi əsasında qəbul aparır. Dövlət sifarişli yerə qəbul olan tələbələr:

Təhsil müddəti boyunca 100% təhsil haqqından azad olunur;

Akademik göstəricilərinə uyğun olaraq aylıq dövlət təqaüdü alırlar.

| **İxtisas** | **Qrup** | **Dövlət sifarişli yer** |
|---|---|---|
| Kompüter elmləri | I | 30 |
| Kompüter mühəndisliyi | I | 30 |
| İnformasiya texnologiyaları | I | 30 |
| Riyaziyyat | I | 30 |
| Maliyyə | II | 30 |
| İqtisadiyyat | II | 30 |

Akademik göstəricilərə əsasən aylıq təqaüdlər:

| **Təqaüd növü** | **Akademik göstərici** | **Aylıq məbləğ** |
|---|---|---|
| Prezident təqaüdü | Bütün fənlər üzrə **91–100 bal** | **275 AZN** |
| Əlaçı təqaüdü | Bütün fənlər üzrə **91–100 bal** | **175 AZN** |
| Həvəsləndirici təqaüd | Bütün fənlər üzrə **minimum 71 bal** | **145 AZN** |
| Adi təqaüd | Bütün fənlər üzrə **minimum 51 bal** | **100 AZN** |

## 2. DİM balına əsasən təhsil haqqı güzəştləri (ödənişli yerlər üçün)

| DİM balı | Güzəşt |
|---|---|
| 690–700 | Təhsil müddəti boyunca 100% təhsil haqqı güzəşti |
| 650–689 | 1 il müddətinə 100% təhsil haqqı güzəşti |
| 600–649 | 1 il müddətinə 50% təhsil haqqı güzəşti |

Qeyd 1: Güzəştin qüvvədə qalması üçün hər semestr üzrə minimum GPA 3.0 tələb olunur.

Qeyd 2: Güzəştlər yalnız təhsil haqqına tətbiq edilir. İllik 750 AZN tələbə xərcinə şamil olunmur.

## 3. Heyvandarlıq ixtisası üzrə xüsusi güzəştlər

AgroDiary sponsorluğu ilə 5 ödənişsiz yer:

- DİM imtahanında 400 və daha yuxarı bal toplayan abituriyentlər sponsorlu yerlərə müraciət edə bilərlər.
- Sponsorlu yer qazanan tələbələr təhsil müddəti boyunca 100% təhsil haqqı güzəştindən yararlanırlar.
- Təhsil haqqı güzəşti kəsir fənləri və yay semestrlərinə şamil edilmir.

## 4. Respublika Fənn Olimpiadası (RFO) qalibləri üçün güzəştlər

Fizika, informatika və riyaziyyat fənləri üzrə IX–XI sinif Respublika Fənn Olimpiadası qalibləri, ADA Universitetinin aşağıdakı ixtisaslarının Dövlət sifarişli yerə qəbul olunduğu halda təhsil müddəti boyunca 100% təhsil haqqından azad olunur və akademik göstəricilərinə uyğun aylıq dövlət təqaüdü alır.

Güzəşt tətbiq olunan ixtisaslar:

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- İnformasiya texnologiyaları
- Elektrik və elektronika mühəndisliyi
- Riyaziyyat

Həmin ixtisasların ödənişli yerlərinə qəbul olunduqları halda, hər semestr üzrə minimum GPA 3.0 saxlamaq şərti ilə təhsil müddəti boyunca 100% təhsil haqqı güzəştindən yararlanırlar.